# ÖN SÖZ

**Hörmətli oxucular!**

Mingəçevir Dövlət Universitetinin (MDU) təsis etdiyi "Dayanıqlı inkişaf" adlı yeni elmi multidissiplinar jurnalın ilk buraxılışını böyük məmnuniyyətlə Sizə təqdim edirik.

MDU tarixində ilk müstəqil elmi jurnal hesab edilən "Dayanıqlı inkişaf" jurnalı universitetin Elmi Şurasının 7 dekabr 2020-ci il tarixli müvafiq qərarı ilə təsis edilib və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınıb.

"Dayanıqlı İnkişaf" jurnalı sosial, texniki və humanitar elm sahələri üzrə yüksək keyfiyyətli tədqiqatların nəticələrinin dərc edilməsini istəyən hər bir elm adamı üçün açıqdır. Jurnal geniş elmi ictimaiyyətə, müəllimlərə, doktorantlara, magistrantlara, tələbələrə, dövlət idarəetmə orqanlarının işçilərinə, eləcə də dayanıqlı inkişaf ideyası və mexanizmlərinin praktiki tətbiqi, cəmiyyətin keyfiyyətcə yeni inkişaf mərhələsinə keçidi, təbiət, texniki, sosial və humanitar elm sahələrinin inkişafı və inteqrasiyası məsələlərində maraqlı olan bütün oxuculara ünvanlanıb.

Məlum olduğu kimi, Minilliyin İnkişaf Məqsədlərindən sonra BMT Baş Assambleyası tərəfindən növbəti 15 il müddətinə insan inkişafının və qlobal inkişafın dayanıqlılığının təmin edilməsinə təkan vermək üçün 17 məqsəd və 169 hədəfdən ibarət "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" adlı strateji sənədin qəbul edilməsi dünya ölkələri qarşısında yeni vəzifələr və inkişaf istiqamətləri müəyyən edib. Sözügedən qlobal təşəbbüsdə fəal iştirak edən Azərbaycan dayanıqlı inkişafın iqtisadi, sosial, ekoloji və digər aspektlərini əhatə edən öhdəliklərini layiqli şəkildə yerinə yetirən ölkələrdən hesab edilir.

Bununla əlaqədar olaraq, dünyada və ölkəmizdə dayanıqlı inkişaf problemi getdikcə daha da aktuallaşır, nəzəri və tətbiqi tədqiqatların başlıca mövzusuna çevrilir, elmi və publisistik nəşrlərdə, müxtəlif yerli və beynəlxalq konfranslarda fəal şəkildə müzakirə olunur.

Araşdırmalar göstərir ki, əksər yerli elmi nəşrlər dayanıqlı inkişaf konsepsiyasının nəzəri və metodoloji əsaslarının bu və ya digər aspektlərinə - siyasi, ekoloji, iqtisadi, sosial və digər məsələlərə həsr edilib. Bu nöqteyi-nəzərdən, ölkəmizdə qeyd olunan müxtəlif aspektlərin qarşılıqlı əlaqəsini və inteqrasiyasını təmin edən, beləliklə də dayanıqlı inkişafın bütöv mənzərəsini görməyə imkan yaradan elmi jurnallara hazırda böyük ehtiyac vardır.

Əminəm ki, respublikanın klassik tipli ali təhsil müəssisələrindən biri olaraq iqtisadiyyat, mühəndislik və təhsil istiqamətləri üzrə kadr hazırlığı həyata keçirən və böyük elmi potensiala sahib olan universitetimizin "Dayanıqlı inkişaf" müasir elmi multidissiplinar jurnalı oxucularımızın bu ehtiyaclarını yüksək səviyyədə qarşılayacaq və böyük maraqlarına səbəb olacaqdır.

Jurnalın başlıca missiyası dayanıqlı inkişaf sahəsində elmi-nəzəri və tətbiqi tədqiqatların səmərəli nəticələrini operativ nəşr etmək, dayanıqlı inkişaf məsələləri ilə bağlı son nəzəri yanaşmaları, yenilikləri və müsbət təcrübələri yaymaq, yerli və xarici ölkələrin tədqiqatçıları arasında elmi kommunikasiyanı inkişaf etdirməkdir.

Redaksiya heyətində Azərbaycan, Türkiyə, İtaliya, Almaniya, Ukrayna və Litvanın tanınmış alimlərinin yer aldığı "Dayanıqlı inkişaf" jurnalında məqalələrin Azərbaycan, türk, ingilis və rus dillərində dərc edilməsi yaxın gələcəkdə elmi nəşrin beynəlxalq status qazanmasına şərait yaradacaqdır.

Ölkəmizdə elmin inkişafına töhfə vermək məqsədilə başladığımız bu yolda dəstək olan bütün tərəfdaşlara, jurnalın redaksiya heyəti və redaksiya şurası üzvlərinə, məqalə müəlliflərinə təşəkkürümü bildirirəm.

Ümid edirəm ki, jurnalımızın ilk buraxılışı maraqlı və faydalı olacaq.

Hər birinizi əməkdaşlığa dəvət edirəm!

***Şahin Bayramov***
***Baş Redaktor***